# DƏNİZ

Qəzet 1931-ci ilin aprelindən çıxır

28 noyabr 2014-cü il
№ 39-40 (8953)
Qiyməti 38 qəpik

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin qəzeti


**Biz enerji, nəqliyyat təhlükəsizliyimizi təmin etmişik. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycan üzərindən keçir. Böyük infrastruktur layihələrini icra etmişik.**

**Yeni dəniz ticarət limanı. Onun birinci hissəsi artıq fəaliyyətə başlamışdır. Yeni gəmilər alınır. Dəmir yoluna, hava nəqliyyatına böyük investisiyalar qoyulur. Yeni aeroportlar tikilir, ən müasir təyyarələr alınır, yeni marşrutlar açılır. Bakı-Tbilisi- Qars dəmiryolu. Bu da tarixi layihədir, artıq reallaşır, onun başa çatmasına az qalıb. Yəni nəqliyyat infrastrukturu bundan ibarətdir.**



**Coğrafi vəziyyətimiz elədir ki, biz nəinki regionda, dünya miqyasında nəqliyyat mərkəzi olmalıyıq. Bu yaxınlarda Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşması və Şərq-Qərb qədim İpək yolunun bərpası üçün önəmli qərarlar verilmişdir. Bununla yanaşı, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyi bizim əsas məsələlərimizdəndir. Bu məsələlərin həlli, həmçinin regional əməkdaşlığa da təkan verəcək.**

**Azərbaycan regional əməkdaşlıq məsələlərində lider rolunu oynayır. Burada nəqliyyat, energetika, təbii qaz layihələri, əlbəttə ki, üstünlük təşkil edir və bütün bu məsələlər nəticədə regional təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərir. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün bu işlərə dövlət dəstəyi verilir.**

**... Dünyada maliyyə və iqtisadi böhran davam edir. İnvestisiya qoyuluşu böyük dərəcədə aşağı düşüb. Bəzi ölkələrdə maliyyə böhranı kəskinləşir. Neft-qaz ilə zəngin olan ölkələr də yəqin ki, neftin qiymətinin kəskin düşməsindən narahatdırlar, bu da təbiidir.**

**Ancaq buna baxmayaraq, Azərbaycan böyük infrastruktur, investisiya layihələrini icra edir. Nə üçün? Çünki bizim xalqımıza, dövlətimizə lazımdır. Dövlətimiz daha güclü olmalıdır. İqtisadiyyat daha da çoxşaxəli olmalıdır. Neft-qaz amilindən asılılıq daha da azalmalıdır. Biz bu layihələrin icrası ilə bir daha göstəririk ki, ancaq müstəqillik dövründə Azərbaycan sürətlə inkişaf edə bilər. İki yüz ilə yaxındır ki, Azərbaycan nefti dünyada tanınır. Hasilatın əvvəlində dünya üzrə neftin bəlkə də 70 faizi Azərbaycanın payına düşürdü. İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti sovet enerji potensialının 70-80 faizini təşkil edirdi.**

**Ancaq Azərbaycan müstəqilliyə qovuşanda bizim vəziyyətimiz necə idi?! Neft sənayesi dağılmış vəziyyətdə idi. Köhnə yataqlarda iş getmirdi. Hər tərəf ekoloji fəlakətə bənzəyirdi. Bakının ətrafını da yada salaq. Bibiheybət mədənləri bir ekoloji fəlakət idi. Qaraşəhər, Böyükşor gölü, digər Balaxanı mədənləri nə gündə idi?! Yəni bizə, müstəqil dövlətə bu qaldı. Neftin hasilatı kəskin şəkildə aşağı düşmüşdü. Biz özümüzü təbii qazla təmin edə bilmirdik. Baxmayaraq ki, sovet vaxtında Azərbaycandan təbii qaz həm Ermənistana, həm də Gürcüstana ötürülürdü, biz isə təbii qazı xaricdən almağa başlamışdıq. Bu idi müstəqilliyimizin əvvəlində müşahidə olunan mənzərə. Ona görə bir daha demək istəyirəm ki, biz buna ancaq müstəqillik dövründə nail ola bilmişik. Çünki bizim taleyimiz öz əlimizdədir.**

**Azərbaycan xalqı söz sahibidir. Azərbaycan xalqın iradəsi ilə idarə olunur. Azərbaycan dövləti lazım olan bələ nəhəng layihələri xalqımız, dövlətimiz üçün icra edir və bundan sonra da edəcək. Çünki biz güclü dövlətik. Biz son illərdə iqtisadi və siyasi islahatlar nəticəsində dünya miqyasında böyük hörmət qazanmışıq. Davos İqtisadi Forumunun hesablamalarına görə, biz rəqabətqabiliyyətlilik üzrə dünya miqyasında 38-ci yerdəyik. Biz beynəlxalq nüfuz qazanmışıq və iki il dünyanın mötəbər qurumu - BMT Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyət göstərmişik və prinsipial ədalətə, beynəlxalq hüquqa söykənən mövqeyimizi orada ifadə etmişik. Budur müstəqilliyin nəticələri və Azərbaycan xalqı bunu görür, bilir, qiymətləndirir.**

**Biz xalq üçün, dövlətimizin möhkəmləndirilməsi üçün çalışırıq və bundan sonra da çalışacağıq. Əminəm ki, gələcəkdə belə böyük layihələrin sayı artacaq. Bizim böyük planlarımız var. Gələcəyə baxışlarımız çox nikbindir. Azərbaycanın inamlı, sürətli inkişafı davam edəcək və biz bütün məqsədlərə çatacağıq.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti.**

## RƏQƏMLƏRİN DİLİ İLƏ




***Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 2014-cü ilin yanvar-oktyabr ayları ərzində 183,1 milyon ton yük daşınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz artmışdır. Qeyri-neft yüklərinin həcmi 3,1 faiz artaraq 130,4 milyon tona çatmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 57,8 faizi avtonəqliyyat, 28 faizi boru kəməri, 9,8 faizi dəmiryolu, 4,4 faizi dəniz nəqliyyatı vasitələri ilə həyata keçirilmişdir.***





Qeyri-dövlət bölməsində yük daşınması 3,8 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 76,5 faiz təşkil etmişdir.

Yanvar-oktyabr aylarında nəqliyyatçılar 1,5 milyard nəfərə və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5 faiz çox sərnişinə xidmət göstərmişlər. Sərnişinlərin 88 faizi avtomobil, 11,8 faizi metro nəqliyyatının xidmətlərindən istifadə etmişdir.

Dəmir yolu nəqliyyatı ilə yük daşınması, cari ilin yanvar-oktyabr aylarında 17,9 milyon ton olmuşdur. Orta hesabla sutkada 598 vaqon yüklənmiş, 612 vaqon boşaldılmışdır. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 5,9 min ton yüklənmə işi yerinə yetirilmişdir.

Dəniz nəqliyyatında daşınmış yüklərin həcmi 8,1 milyon ton təşkil etmişdir. Yüklərin 56,2 faizini neft yükləri, 43,8 faizini isə quru yüklər təşkil etmiş və bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. Cari ilin yanvar-oktyabr aylarında dəniz limanlarında 9,7 milyon ton yükləmə-boşaltma işləri həyata keçirilmişdir. İşlənmiş yüklərin 85,9 faizini beynəlxalq tranzit yüklər təşkil etmişdir. 2014-cü ilin noyabrın 1-nə kimi limanlarda göndərilmək üçün 145,3 min ton idxal yüklərin qalığı olmuşdur.

Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan avtomobil nəqliyyatı ilə 105,7 milyon ton yük, 1,3 milyard sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 2,7 və 5,2 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 96,2 faizi avtobus, 3,8 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövriyyəsi 2,8 faiz, sərnişin dövriyyəsi isə 5,7 faiz artmışdır. Metro nəqliyyatının xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 4,3 faiz artaraq 176 milyon nəfər olmuşdur. Hava nəqliyyatı ilə 1,5 milyon və ya 8,4 faiz çox sərnişin daşınmış, daşınmanın 99,7 faizi dövlət, 0,3 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir. Bu nəqliyyat növü ilə daşınmış yüklərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz artaraq 99,3 min tona çatmışdır.

Magistral neft kəmərləri ilə 38,6 milyon ton neft nəql edilmiş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,8 faiz artım müşahidə olunmuşdur. Nəqletmənin dörddə üç hissəsi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar-oktyabr ayları ərzində bu kəmər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalında BTC kəməri ilə 4,4 milyon ton tranzit Türkmənistan nefti nəql edilmişdir. Magistral qaz kəmərləri ilə 9,1 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 29,9 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmişdir.

## Ölkə əhalisinin sayı 9564,4 min nəfərdir



**2014-cü il oktyabrın 1-nə kimi ölkə əhalisinin sayı 9564,4 min nəfərə çataraq ilin əvvəlindən 87,3 min nəfər və ya 0,9 faiz artmışdır. Dövlət Statistika Komitəsinin son məlumatına görə, əhalinin bir kvadratkilometrə düşən sıxlığı 110 nəfər olmuşdur. Hər 1000 nəfər kişiyə qadınların sayı 1011 nəfər təşkil edir. Əhalinin ümumi sayının 53,2 faizi şəhər, 46,8 faizi isə kənd sakinləridir.**

Cari ilin yanvar-sentyabr ayları ərzində ölkədə 128,1 min körpə doğulmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstərici 17,9-dan 18,2-yə qədər artmışdır. Doğulanların 53,6 fazizini oğlan, 46,4 faizini isə qız uşaqları təşkil edir. Körpələrin 2308-i əkiz, 48-i isə üçəm doğulmuşdur.

Rəsmi orqanlar tərəfindən ölkədə 63 min nikah və 9 min boşanma halları qeydə alınmışdır və əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstəricilər müvafiq olaraq 8,9 və 1,3 olmuşdur.

2014-cü il yanvar-sentyabr aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 1375 nəfər gələn və 635 nəfər ölkədən gedən qeydə alınmışdır.

### *Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə*

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"ni Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə qərara alır:

Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 157, № 10, maddə 886; 2013, № 7, maddə 792) ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1-1-ci maddə əlavə edilsin:

"1-1. Xaricdə işlədiyi gəmiyə çatmaq üçün fərdi qaydada ölkədən gedən vətəndaş şəxsiyyət sənədi ilə birlikdə həmin gəmi heyətinin tərkibində olmasını təsdiq edən sənədi (tərtib olunmuş gəmi heyətinin siyahısından çıxarış) sərhəd nəzarətindən keçərkən təqdim etməlidir.".

2. 3-cü maddədə "daimi yaşama statusu" sözləri "daimi yaşamaq üçün icazə" sözləri ilə əvəz edilsin.

3. 11-ci maddə aşağıdakı redaksiyada verilsin:

"11. Şəxsin ölkədən getmək hüququ Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində göstərilmiş hallara əsasən müvəqqəti məhdudlaşdırıldıqda, şəxsiyyət sənədini verən müvafiq icra hakimiyyəti orqanının qərarı ilə dənizçiyə şəxsiyyət sənədinin verilməsindən imtina edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 oktyabr 2014-cü il*

### *«Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»də dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1068-IVQD nömrəli qanununun tətbiqi haqqında*

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1068-IVQD nömrəli qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"nin 11-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası həyata keçirir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 4 noyabr 2014-cü il*

### *T.M. Ziyadovun Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Baş direktoru təyin edilməsi haqqında*

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Taleh Məhəmməd oğlu Ziyadov Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Baş direktoru təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 noyabr 2014-cü il.*

### *E.İ. Mirzəyevin Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Baş direktoru vəzifəsindən azad edilməsi haqqında*

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Elçin İsmayıl oğlu Mirzəyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Baş direktoru vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 17 noyabr 2014-cü il.*

## Nazirlər Kabineti gələn il Novruz, Ramazan, Qurban bayramları haqqında Qərar qəbul edib

Noyabrın 21-də Azərbaycan Respublikasının Nazirlər Kabineti "2015-ci ildə Novruz, Ramazan, Qurban bayramları haqqında" Qərar qəbul edib.

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən AzərTAc-a məlumat verilib.

Qərarda deyilir: "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli Qanunun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli Fərmanına əsasən, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının və Qafqaz Müsəlmanları İdarəsinin məlumatına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

2015-ci ildə 20, 21, 22, 23, 24 mart - Novruz bayramı,

17, 18 iyul - Ramazan bayramı,

24, 25 sentyabr - Qurban bayramıdır.

Qanunvericiliyə uyğun olaraq, həmin günlər iş günü hesab edilmir".







## TƏQAÜDÜN TƏYİN OLUNMASI VƏ ÖDƏNİLMƏSİ QAYDALARI TƏSDİQ EDİLİB

**Azərbaycan Respublikasının Nazirlər Kabineti "Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olmuş, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması və ödənilməsi "Qaydası"nın təsdiq edilməsi barədə Qərar qəbul edib.**

Qaydaya görə, təqaüd Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailə üzvlərindən yalnız valideynlərinə və dul arvadına təyin edilir.

Təqaüd almaq üçün şəxs Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Sosial Təminat Xidmətinə (DSTX) və ya ƏƏSMN yanında DSTX-nin şəhər, rayon əhalisinin sosial müdafiəsi mərkəzlərinə ərizə ilə müraciət edir.

Ərizəyə müraciət edən şəxsin Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçu ilə qohumluğunu təsdiq edən sənəd (valideynlərinə münasibətdə - hərbi qulluqçunun doğum haqqında şəhadətnaməsi, dul arvadına münasibətdə - nikah haqqında şəhadətnamə); şəxsin Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olması barədə Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon (şəhər) şöbəsinin arayışı; ölüm haqqında şəhadətnamə; şəxsin itkin düşmüş və yaxud ölmüş hesab edilməsi barədə məhkəmənin qətnaməsi; təqaüd almaq hüququ olan digər ailə üzvləri barədə məlumat əlavə olunmalıdır.

Qaydaya görə, müraciətə daxil olduğu gündən 10 (on) iş günü müddətində baxılır və təyinat aparılır. Təqaüd ailə üzvlərinin sayına bərabər bölünməklə ödənilir.

Təqaüd Azərbaycan hüdudlarından kənarda yaşayan ailə üzvlərinə ƏƏSMN yanında DSTX, Azərbaycanda yaşayan ailə üzvlərinə isə yaşayış yeri üzrə ƏƏSMN yanında DSTX-nin şəhər, rayon əhalisinin sosial müdafiəsi mərkəzləri tərəfindən təyin edilir və ödənilir. Ödəniş dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.

Azərbaycandan kənarda yaşayan ailə üzvlərinə təqaüd onların arzularına əsasən Azərbaycan banklarında açılmış şəxsi hesablarına və ya öz vəsaitləri hesabına yaşadıqları ölkələrə köçürülür. Müraciət müddətindən asılı olmayaraq, təqaüd 2015-ci il yanvarın 1-dən etibarən təyin edilir. Qərar gələn il yanvarın 1-dən qüvvəyə minir.

# GƏMİÇİLİYİN STENDİNƏ MARAQ BÖYÜK İDİ





**Noyabrın 19-dan 21-dək "Bakı Ekspo Mərkəzi"ndə "Xəzər: ətraf mühit üçün texnologiyalar" mövzusunda beşinci Beynəlxalq Ətraf Mühit Sərgisi ("CTE-2014") keçirildi.**

Böyük Britaniyanın "İTE Group pic" və onun Qafqazdakı tərəfdaşı "İteca Caspian" şirkətlərinin birgə təşkilatçılığı ilə keçirilən sərginin əsas məqsədi təbii sərvətlərin qorunub saxlanması və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradacaq təbiətin mühafizə üzrə innovasiyalı avadanlıq və texnologiyaların ölkəmizdə təşviqi və tətbiqidir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və İDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) Kampaniyasının böyük dəstəyi ilə keçirilən sərgidə ölkəmizlə yanaşı, Almaniya, İtaliya, Türkiyə, Rusiya, Böyük Britaniya, Fransa, İsveç və sair ölkələrdən 77 şirkət iştirak edirdi. Sərgiyə qatılanlar arasında ekologiya sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları da az deyildi. Bakılılar və şəhərimizin qonaqları 3 gün ərzində təbii ehtiyatlardan səmərəli istifadə üzrə ən yeni layihələr, alternativ enerji mənbələri, eləcə də suyun təmizlənməsi üçün ən müasir avadanlıqlarla tanış ola bildilər.

Sərgidə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti də təmsil olunurdu. İlk gündən Gəmiçiliyin stendinə maraq böyük idi. Yük daşınması və dənizdə neft hasilatı ilə bağlı dəniz nəqliyyatı xidmətləri göstərən Gəmiçilikdə ətraf mühitin mühafizəsi, Xəzərin çirkləndirilməsinin qarşısının alınması istiqamətində də çox mühüm işlər görürlər. Cəmiyyətin ətraf mühitin mühafizəsi siyasəti təkcə müasir iş təcrübələrindən yararlanaraq, dənizdə və limanlarda çirklənmənin qarşısını almaqla bitmir. Məsələn, üzən vasitələr və sahil obyektlərində formalaşan bərk və maye istehsalat, məişət-təsərrüfat tullantılarının toplanması, saxlanması, daşınması, təhvili, utilizasiyası və təkrar emalı kimi ekoloji proseslər "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində çox sərıştəliklə idarə olunur. Və yaxud, dəniz nəqliyyatı vasitələrinin təhlükəsizliyi üçün dəniz yollarında, körpülərin ətrafında mütəmadi dibdərinləşdirmə işlərinin görülməsi vacibdir. Lakin çıxarılması, daşınması və boşaldılması zamanı qruntun suyu çirkləndirməməsi, ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyi təmin etmək məqsədilə, dibdərinləşdirmə işlərinə başlanmazdan əvvəl həmin ərazilər üzrə ekoloji əhəmiyyətli materiallar toplanılır. Sərgidə nümayiş etdirilən maketlər, şəkillər, videoçarx... ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən bir çox digər mühüm işləri də əyani təsdiq edirdi.





"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin nümayəndələri pavilyonumuz qarşısında ayaq saxlayan ziyarətçiləri maraqlandıran bütün suallara ətraflı cavab verirdilər. Stendlərimizə baxanlar pavilyonumuzu birqayda olaraq razılıqla tərk edirdilər. Axı Cəmiyyətin ətraf mühitin mühafizəsi məqsədilə həyata keçirdiyi bütün tədbirlər həm də hər birimizin sağlamlığının qorunmasına verdiyi əvəzsiz töhfədir.

**İNFORMASİYA VƏ MƏTBUAT ŞÖBƏSİ**

# BİRGƏ İRİMİQYASLI TƏLİMLƏR KEÇİRİLİB

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən müdafiə naziri, general-polkovnik Zakir Həsənov və müdafiə nazirinin birinci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıqovun rəhbərliyi ilə noyabrın 13-dən Hərbi Dəniz Qüvvələri tam heyətdə, Hərbi Hava Qüvvələri, Hava Hücumundan Müdafiə Qoşunlarının hissə və bölmələri, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin iştirakı ilə birgə əməliyyat-taktiki təlimləri keçirilib.***

Təlimin birinci mərhələsində Hərbi Dəniz Qüvvələrinin qüvvə və vasitələri tam döyüşə hazır vəziyyətə gətirilərək gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxıb və əsas baza məntəqəsinin mühafizə və müdafiəsinin təşkilini müvəffəqiyyətlə icra edib. Əlavə olaraq şəxsi heyət və silahlarla komplektləşdirmə tədbirləri də başa çatdırılıb.

İkinci mərhələdə Hərbi Dəniz Qüvvələrinin qərargahında Hərbi Hava Qüvvələri, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi və Föfqəladə Hallar Nazirliyi ilə qarşılıqlı əlaqədə dəniz sərhədlərinin, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində neft-qaz infrastrukturu obyektlərinin mühafizə və müdafiəsi üzrə əməliyyatların planlaşdırılması həyata keçirilib və Hərbi Dəniz Qüvvələrinin gəmi, hissə və bölmələrinə döyüş tapşırıqlarının çatdırılması yekunlaşdırılıb.

Üçüncü mərhələdə Hərbi Hava Qüvvələrinin döyüş təyyarələri və helikopterlərinin dəstəyi ilə düşmən gəmilərinin və terror-diversiya qruplarının məhv edilməsi üzrə təlim-döyüş tapşırıqlarını yerinə yetiriblər. Təlimlərə cəlb olunan bütün növ qüvvə və vəsaitlərdən döyüş atışları icra olunub.

Aktiv faza zamanı terrorçular tərəfindən ələ keçirilən bazanın məhv edilməsi, suüstü gəminin və heyət üzvlərinin azad edilməsi, boru kəmərinin monotorinqi, terrorçular tərəfindən ələ keçirilən neft özülünün azad edilməsi, Xəzər dənizinin əməliyyat zonasına daxil olan düşmən gəmilərinin məhv edilməsi, gəmilərin orderə düzülərək hərəkəti, Böyük Zirə adasının cənub reyd istiqamətində dənizlə keçidi, gəmilərin mühafizə olunmayan reyddə lövbərə durması və hərəkətdə universial müdafiəsinin təşkili üzrə tapşırıqlar hərbçilərimiz tərəfindən uğurla icra edilib.

# XÜSUSİ PİYADA KÖRPÜSÜ DƏ TİKİLİR

**Birinci Avropa Oyunlarının Bakı şəhərində keçirilməsi ilə əlaqədar Böyükşor gölü sahilində inşa edilən Olimpiya stadionuna nəqliyyat vasitələrinin birbaşa təhlükəsiz və rahat hərəkətini təmin etmək məqsədilə Heydər Əliyev və Ziya Bünyadov prospektlərinə paralel, 6 hərəkət zolaqlı yeni avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Layihəyə uyğun olaraq 2 tunel, 2 körpü, 1 piyada tuneli və 1 piyada körpüsünün tikintisi nəzərdə tutulub.**



Uzunluğu 276 metr, qapalı hissəsi 58,5 metr olan 1-ci tunelin və uzunluğu 205 metr olan 1-ci körpünün, eləcə də uzunluğu 169 metr olan 2-ci körpünün tikintisi başa çatdırıldıqdan sonra yeni yoldan Olimpiya stadionuna, eləcə də Hava Limanından və Olimpiya stadionundan şəhərin mərkəzinə doğru hərəkət edən nəqliyyat vasitələrinin yeni yola birbaşa çıxışı təmin olunacaq.

Ziya Bünyadov prospekti ilə kəsişmədə yerləşən və uzunluğu 462 metr, qapalı boyu 54,3 metr olan 2-ci tunel yeni tikilən avtomobil yolundan istifadə etməklə Olimpiya stadionu ərazisinə birbaşa təhlükəsiz hərəkəti təmin edəcək və stadionun ərazisində dairəvi hərəkət üçün nəzərdə tutulan avtomobil yolları ilə bağlantılar yaradacaq.

Bundan əlavə, "Koroğlu" metro stansiyası ərazisindən Olimpiya stadionuna piyadaların təhlükəsiz keçidini təmin etmək məqsədilə inşa olunan piyada körpüsündə işlərin 80 faizi yerinə yetirilib, piyada tunelində isə qazma işləri başa çatdırılıb. Sözügedən layihələrin gələn ilin aprelinədək başa çatdırılması nəzərdə tutulub.



## "DİL - KARYERAYA GEDƏN YOL"



***Noyabrın 20-də Azərbaycan Dövlət Dəniz Akademiyasında ali məktəblərin tələbələri arasında "Dil - karyeraya gedən yol" adlı müsabiqə keçirilmişdir. Müsabiqədə Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Texniki Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı Slavyan Universiteti, Qafqaz Universiteti, Azərbaycan Kooperasiya Universiteti və Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələri iştirak etmişlər.***



32 tələbənin dilə sevgisini Azərbaycan Dövlət Dəniz Akademiyasının tədris və tərbiyə işləri üzrə prorektoru Çingiz Əliyev, Azərbaycan Dövlət Pedaqoji Universiteti "İngilis dili və tədrisi metodikası" kafedrasının müdiri, professor Nailə Sadıqova, Azərbaycan Dövlət Pedaqoji Universiteti "Xarici dillər" kafedrasının müdiri, dosent Gülçöhrə Alıyeva, Azərbaycan Dövlət Dəniz Akademiyası "Dillər" kafedrasının müdiri, dosent Qələmşah Heybətov və həmin kafedranın baş müəllimi Samid Süleymanovdan ibarət nüfuzlu münsiflər heyəti qiymətləndirib.

Münsiflər heyətinin qərarı Bakı Dövlət Universitetinin tələbəsi Siddiqə Xəlilova üçün daha sevindirici olmuşdur. O, müsabiqənin qalibi elan edilmiş və noutbukla mükafatlandırılmışdır. Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbəsi Albina Cahangirovanın layiq görüldüyü ikinci yer ona həm də planşet qazandırmışdır. Üçüncü yerin qalibi Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbəsi Kamran Lətifov mobil telefonla mükafatlandırılmışdır. Hər üç yerin qalibinə həm də müvafiq diplom verilmişdir.

Müsabiqədə dördüncü yerə layiq görülən Qafqaz Universitetinin tələbəsi Nərmin İsmayılova diplomla, digər iştirakçılar isə sertifikatlarla təltif edilmişlər.

**ADDA-nın "Elmi-tədqiqat" şöbəsi.**

## Ananın təhsil səviyyəsi uşağın uğuruna təsir edir

**Miçiqan Universitetindən olan alimlər 1998-ci ildə məktəbə gedən və 2007-ci ilin yazına kimi tədqiqatda iştirak edən uşaqların göstəricilərini araşdırıblar.**

Tədqiqatçılar 14239 halda iştirakçıların üçüncü, beşinci və səkkizinci sinifdə riyaziyyat və oxu üzrə orta balını öyrəniblər. Onlar anaların öz uşaqlarından gözlədikləri müvəffəqiyyəti, ailənin gəlirini və digər amilləri nəzərə alıblar. Tədqiqatçılar müəyyən ediblər ki, uşaqlarını19 və daha yuxarı yaşlarında dünyaya gətirən anaların övladları, bir qayda olaraq, bağçada daha müvəffəqiyyətli olublar. Bundan başqa, onlarda oxu və riyaziyyat qabiliyyəti 18 və daha az yaşlarda uşaq doğan anaların övladlarına nisbətən çox inkişaf edib. Beləliklə, yeniyetmə yaşında uşaq doğmaq uşağın nailiyyətinə mənfi təsir göstərir.

Doğuşdan sonra təhsilini davam etdirən anaların uşaqlarının müvəffəqiyyəti daha yaxşı olub. Bunula belə, nə bu uşaqlar, nə də onların qardaş və bacıları müvəffəqiyyət baxımından öz həmyaşıdlarına çata bilməyiblər. Onlar, hər halda, anaları təhsilini başa çatdıran uşaqlara nisbətən pis oxuyublar. Alimlər həmçinin müəyyən ediblər ki, yeniyetmə yaşında uşaq doğan anaların nailiyyəti orta məktəb və universitetlərdə uşağı gec dünyaya gətirən analara nisbətən zəif olur.

## "Şahdəniz-2" layihəsi üçün nəzərdə tutulan polad borular Batumi limanına gətirilib

**"Şahdəniz" layihəsinin ikinci mərhələsinin həyata keçirilməsi çərçivəsində hər birinin çəkisi 6 ton olan polad boruların ilk partiyası Batumi limanına gətirilib. Həmin borular Azərbaycana dəmir yolu ilə çatdırılacaq. Gələn ildən isə limana daha böyük ölçülü boruların gətirilməsi nəzərdə tutulub.**

Bu barədə Batumi Dəniz Limanının rəsmi saytında məlumat verilir. Bildirilir ki, "Şahdəniz-2" layihəsi üçün boruların daşınması ilə bağlı Batumi Dəniz Limanı ilə "Panalpina" şirkəti arasında razılıq əldə olunub. Məlumatda, həmçinin qeyd edilir ki, Xəzər dənizindəki "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi dünya neft və qaz sənayesində həyata keçirilən ən böyük və mürəkkəb layihələrdən biridir. Layihə üzrə boruların daşınması məntəqəsi kimi Batumi Dəniz Limanının seçilməsi isə bu yükaşırma müəssisəsinin Qara dəniz regionunun liman xidmətləri sahəsində etibarlı tərəfdaş olduğunu bir daha təsdiqləyir.

## İLK TƏCRÜBƏMİZƏ KİMİ HƏR ŞEY BİZƏ ASAN GÖRÜNÜRDÜ



**Bu ilin iyununda "Akademik Topçubaşov" gəmi-bərəsində istehsalat təcrübəsində olduq. Hələ də o günlərin təəssüratı ilə yaşayırıq. İlk təcrübəmizə kimi sular qoynunda hər şey bizə asan görünürdü. Bizə elə gəlirdi ki, yaxşı dənizçi olmaq üçün təkcə yaxşı oxumaq yetərlidir. Bilik lazımdır, buna heç kəsin şübhəsi yoxdur. Amma dəniz həm də cəsurları, dözümlüləri, iradəsi möhkəm olanları sevir. Üstəlik səhəri dirigözlü açmaq hər oğulun hünəri deyil. Axı gəmilər gecə-gündüz yük daşıyırlar. İlk təcrübə göstərdi ki, öyrənəcəyimiz, görüb-götürəcəyimiz çox şeylər var. Ali məktəbi bitirənə kimi dənizçi həyatının incəliklərini elə mənimsəməliyik ki, işləyəndə çətinliklər qarşısında aciz qalmayaq.**

Gəmidəki sağlam mühit, nizam-intizam çox xoşumuza gəldi.

Dənizçilərin bir ailənin üzvləri kimi dolanmaları, çox işdə əl-ələ, çiyin-çiyinə verməleri ürəyimizdən idi. Dənizçi süfrəsinin yeməkləri də ki, bir-birindən ləzzətli. Gəmi aşpazı İlham Qarayevin bişirdiyi xörəklərin dadı uzun müddət adamın damağından getmir.

**Anar ABDULLAYEV,**
**ADDA-nın 193 R qrup tələbəsi**



## HƏR ÖLKƏNİN ÖZ ÖMÜR PAYI?

**Dünya ölkələri arasında ən uzun ömür sürən qadınlar Honkonqda yaşayırlar. Bu ölkədə qadınların orta ömrü 87 ildir. Ən qısa orta ömür isə Afrika ölkəsi olan Sierra Leonedə qeydə alınmışdır: cəmi 45 il. Qadınlar arasında orta ömür uzunluğuna görə sonrakı yerləri 86 illə Yaponiya və San Marino tutur.**

Fransa, İtaliya, İspaniya və İsveçrədə qadınlar orta hesabla 85 il, Avstraliya, Avstriya, İslandiya, İsrail, Cənubi Koreya, Lüksemburq, Malta, Norveç, Portuqaliya, Sinqapur və İsveçdə 84 il, Belçika, Kanada, Almaniya, Yunanıstan, İrlandiya, Hollandiya, Yeni Zellandiya və Sloveniyada 83 il yaşayırlar.

Kişilərin orta ömrü qadınlara nisbətən 5-6 il qısadır. İsveçrə və İslandiyada kişilər orta hesabla 81 il ömür sürürlər ki, bu da dünyada ən yüksək göstərici sayılır. Sonrakı yerləri 80 il orta ömürlə Avstraliya, Honkonq, İsrail, İtaliya, Malta, San Marino, Sinqapur və İsveç tutur. Türkiyədə orta ömür qadınlar arasında 78, kişilər arasında 71 ildir.

Yaşlı insanların ən çox olduğu ölkə Yaponiyadır. Bu ölkədə hər 4 nəfərdən biri 65 və daha yuxarı yaşdadır. 127,3 milyon əhalisi olan Yaponiyada 30,5 milyona yaxın yaşlı insan yaşayır.

Almaniya və İtaliyada yaşı 65 və daha yuxarı olan insanlar əhalinin hər 100 nəfərdən 21-ni təşkil edir. Bolqarıstan, Portuqaliya, İsveç və Yunanıstanda bu göstərici yüzdə 19, Finlandiya, Avstriya, Beçika, Estoniya və İspaniyada isə yüzdə 18-dir. Çində hər yüz nəfərdən 9-nun, yəni 122,3 milyon nəfərin yaşı 65 və daha yuxarıdır.

Dünyada əhalisinin sayına görə (1,2 milyard) ikinci yerdə olan Hindistanda hər yüz nəfərdən cəmi beşi 65 il və bundan yuxarı ömür sürür.

Orta ömrün ən qısa olduğu ölkələr Qərbi Afrikadadır. Sierra Leone Respublikasında insanlar orta hesabla 45 il yaşayırlar. Bu, dünya üzrə ən qısa orta ömürdür. Afrika qitəsinin kasıb ölkələrində orta ömür 45-49 yaş arasında dəyişir.

# DÜŞMƏNLƏ DOST KİMİ RƏFTAR ETDİKCƏ...

## İRƏVAN QUBERNİYASI

İrəvan quberniyası Qafqaz cəbhəsi və Qafqaz ordusunun yaxın arxa cəbhəsi idi. Quberniyanın İrəvan, Aleksandropol, Naxçıvan və başqa qəzalarında ehtiyat hissələr və könüllü dəstələri yerləşdirilmişdi.

Fevral inqilabı (1917-ci il) nəticəsində çarizmin devrilməsi xəbəri İrəvan quberniyasına martın əvvəllərində çatdı. Quberniyada Müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının formalaşdırılmasına başlandı. Martın 14(27)-də təçkil olunan Quberniya İcraiyyə Komitəsi özünü Xüsusi Zaqafqaziya Komitəsinin yerli orqanı elan etdi. Qəzalarda da icraiyyə komitələri yaradıldı. Müvəqqəti hökumət tərəfindən İrəvan quberniyasına və qəzalara komissarlar təyin edildi.



Fevral inqilabından (1917-ci il) sonra İrəvan quberniyasında sovetlər də yaranmağa başladı. Martın 8 (21)-də Aleksandropolda əsgər, sonra isə fəhlə deputatları sovetləri meydana gəldi. Hər iki sovet tezliklə birləşdi. İrəvan şəhərində martın 21(25)-də əsgər, apreldə isə fəhlə deputatları sovetləri yarandı. Mart ayı ərzində İrəvan quberniyasının şəhərlərində sovetlər təşkil olundu. Həm müvəqqəti hökumətin yerli orqanlarında, həm də sovetlərdə daşnaklar üstünlüyü ələ aldılar.1917-ci il sentyabrın sonlarında daşnaklar Tiflisdə "Erməni milli müşavirəsi" çağırdılar. Müşavirədə erməni milli şurası (sədr A. Aqaronyan) təşkil edildi. İrəvan şəhərində və quberniyanın qəzalarında da milli şuraların təşkil olunmasına başlandı. Erməni milli şurası İrəvan quberniyasının azərbaycanlı əhalisinə qarşı soyqırım siyasətinin hazırlanması və həyata keçirilməsi, Osmanlı imperiyasında ermənilərin pozuculuq fəaliyyətinin təşkili, Qafqaz cəbhəsində vuruşmaqdan ötrü erməni korpusunun komplektləşdirilməsi üçün tədbirlər görməyə başladı. Oktyabr çevrilişindən (1917) sonra yaradılan Zaqafqaziya komissarlığı (1917-ci il 15(28) noyabr hakimiyyətini İrəvan quberniyasına da yaydı. İrəvan quberniyasında da Müəssisələr məclisinə (Rusiya) seçkilərdə daşnaklar və sazişçilər qalib gəldilər. 1918-ci ilin 10(23) fevralında işə başlayan Zaqafqaziya Seymi Cənubi Qafqazın Rusiyadan ayrılmasını təsdiqlədi (1918-ci il, mart). Zaqafqaziya Demokratik Federativ Respublikası elan olunduqda (1918-ci il, 22 aprel) İrəvan quberniyası onun tərkibinə qatıldı.

Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) hökuməti İrəvan quberniyası və Osmanlı imperiyasında yaşayan ermənilərdən özünün siyasi məqsədləri üçün istifadə etmək xəttini həyata keçirirdi. 1917-ci il dekabrın17(30)-də Millətlərin işləri üzrə xalq komissarlığında erməni işləri üzrə ayrıca komissarlıq yaradılmışdı. RSFSR Xalq Komissarları Soveti 1917-ci il dekabrın 27-də (1918-ci il 11 yanvar) "Türkiyə Ermənistanı haqqında dekret" qəbul etdi. Rus hərbi hissələrinin Qafqaz cəbhəsindən geri çağırılması (1917-ci il dekabr-1918-ci il yanvar) daşnakların mövqeyini xeyli gücləndirdi. İrəvan quberniyasında azərbaycanlılara qarşı soyqırımı daha da genişləndirildi.

Zaqafqaziya seyminin dağılmasından sonra (1918-ci il, 26 may) daşnaklar 1918-ci il mayın 28-də Tiflisdə erməni (Ararat) Respublikasının yaranmasını elan etdilər. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli iclasının qərarına əsasən, İrəvan şəhəri siyasi mərkəz kimi ermənilərə verildi. Ermənistan Respublikası ilə Osmanlı dövləti arasında bağlanmış 1918-ci il 4 iyun tarixli Batum müqaviləsinə əsasən, Sürməli qəzası, Aleksandropol, Şərur, Eçmiədzin və İrəvan qəzalarının böyük bir hissəsi Osmanlı dövlətinə keçdi. İrəvan quberniyasının ərazisinin üçdə bir hissəsindən azı Ermənistanın əlində qaldı. Lakin Birinci Dünya müharibəsində Osmanlı dövlətinin məğlubiyyəti (Mudros barışığı,1918-ci il) onun bu torpaqlarda möhkəmlənməsinə imkan vermədi. Azərbaycan Xalq Cümhuriyyəti də İrəvan quberniyasının tərkibinə daxil olan ərazilərində hakimiyyətin bərqərar edilməsində çətinliklərlə üzləşdi. Bundan istifadə edən



daşnak hökuməti İrəvan quberniyasında genişmiqyaslı soyqırımı həyata keçirdi. 1917-ci ilin fevralından 1918-ci ilin martına qədərki dövrdə İrəvan quberniyasında 200 azərbaycanlı kəndi dağıdılmış, 135 min nəfərdən çox əhali doğma torpaqlarından qovulmuş və ya məhv edilmişdi. Erməni (Ararat) respublikası qurulduqdan sonra azərbaycanlılara qarşı soyqırımı dövlət siyasətinə çevrildi. Amerika alimləri Castin və Karolin Makkertilərin məlumatına görə, qarşıdurmanın sonunda (1920-ci il nəzərdə tutulur) İrəvan quberniyasında 180000 müsəlman, yaxud quberniyanın müsəlman əhalisinin üçdə ikisindən çoxu ya öldürülmüş, ya da qaçqın düşmüşdü. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti İrəvan quberniyasında azərbaycanlılara qarşı qırğın və deportasiya siyasətinin qarşısını almaq üçün tədbirlər görməyə çalışırdı. Lakin erməni daşnak hökuməti bu sahədə fəaliyyətini davam etdirirdi. Azərbaycanlılara qarşı soyqırım həyata keçirilməsində Andranik, Dro, Njde və başqaları öz amansızlıqlarına görə xüsusi ilə fərqlənirdilər. Lakin azərbaycanlılar doğma torpaqları uğrunda qeyri-bərabər mübarizəni davam etdirirdilər.



Bakıda təşkil edilmiş İrəvan quberniyası müsəlmanlarının həmyerlilər cəmiyyəti də quberniyada yaşayan azərbaycanlılarla həmrəylik sahəsində fəal iş aparırdı. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra (1920-ci il, 29 noyabr) İrəvan quberniyasının torpaqları onun tərkibinə daxil edildi. İrəvan quberniyası anlayışı 1930-cu ildə ləğv olundu.

## İRƏVAN QUBERNİYASI MÜSƏLMANLARININ HƏMYERLİLƏR CƏMİYYƏTİ

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə İrəvan quberniyasının soyqırımına məruz qalan türk-müsəlman əhalisi arasında əlaqələr yaratmaq və həmin quberniyadan olan azərbaycanlı qaçqınlara maddi yardım göstərmək məqsədilə Bakıda yaradılmış qurum. İrəvan quberniyası, həmçinin Naxçıvan bölgəsilə əlaqələri yaradılması və inkişafında, buradakı yerli azərbaycanlı əhalinin problemlərinin həllində əslən keçmiş İrəvan quberniyasından olan ictimai xadimlərin, ziyalıların, onların yaratdıqları təşkilatların və cəmiyyətlərin mühüm rolu olmuşdur. 1919-cu il yanvarın 2-də Bakıda İrəvan quberniyası ictimai xadimlərinin müşavirəsi keçirildi. Araz-Türk Cümhuriyyətinin nümayəndəsi P. Bayrambəyov müşavirə iştirakçılarını İrəvan quberniyası müsəlmanlarının faciəli vəziyyəti ilə tanış etdi. O, Azəri-Türk Cümhuriyyətinin yaranması tarixi barədə də ətraflı məlumat verdi. Müşavirədə tarixi Azərbaycan ərazisi olan İrəvan quberniyasını tutmaq, bu mümkün olmadıqda isə Ararat Respublikasını müsəlmanlara qarşı törədilən vəhşiliklərin qarşısını almaq üçün tədbirlər görməyə məcbur etmək qərara alındı. Bölgəyə qarışıq komissiya göndərmək xahişi ilə ingilis generalı Tomsona müraciət etmək, onunla görüşmək məqsədilə Teymur bəy Makinski, P. Bayrambəyov və başqalarından ibarət nümayəndə heyəti yaratmaq, yerli azərbaycanlı əhalinin ağır vəziyyətilə bağlı Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti və Hökumətinə memorandumlar vermək də nəzərdə tutulurdu.

Qərara uyğun olaraq, 1919-cu il yanvarın 5-də Parlamentin binasında keçmiş İrəvan quberniyasında, o cümlədən Naxçıvan bölgəsində yaşayan azərbaycanlıların nümayəndələrinin fövqəladə iclası keçirildi, mahaldakı mövcud vəziyyət müzakirə olundu və quberniya müsəlmanlarının həmyerlilər cəmiyyəti yaradıldı. Yanvarın 6-da cəmiyyətin iclasında aşağıdakı tərkibdə idarə heyəti seçildi: T. Makinski (sədr), H. Qasımov (sədr müavini), R. İsmayılov (katib), M. Sidqi (katibin müavini) və A. Makinski (xəzinədar).



İdarə Heyətinin ertəsi gün keçirilən iclasında yerlərdəki vəziyyətlə yaxından tanış olmaq və müəyyən tövsiyələr hazırlamaq məqsədilə Mirabbas Mirbağırovu keçmiş İrəvan quberniyasına göndərmək qərara alındı. İclasda həmçinin, türk-müsəlman əhalisinə dəyən zərəri müəyyənləşdirmək məqsədilə İrəvan quberniyasına qarışıq komissiya göndərilməsi üçün təcili tədbirlər görülməsi və həmyerlilər birliyi üzvlərindən də bir nəfərin həmin komissiyanın tərkibinə daxil edilməsinin Azərbaycan hökumətindən xahiş olunması, M. Mirbağırovun xüsusi səlahiyyətlərlə İrəvan quberniyasına göndərilməsinin Azərbaycan Xalq Cümhuriyyəti Baş nazirinin nəzərinə çatdırılması razılaşdırıldı. İclasda Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin Araz-Türk Cümhuriyyətinin nümayəndəsi P. Bayrambəyovu qəbul etməsi və İrəvan quberniyasındakı hadisələr haqqında onun məlumatı da iclasda bəyənildi. İrəvan quberniyasından olan qaçqınlar üçün ayrılan bir milyon manatdan cari xərclər üçün müxtəlif məbləğlər ayrıldı.



## İRƏVANIN ERMƏNİLƏRƏ GÜZƏŞT EDİLMƏSİ

İrəvan şəhərinin siyasi mərkəzinin ermənilərə verilməsi haqqında Azərbaycan Milli Şurasının qərarı (1918-ci il, 29 may). Zaqafqaziya Seyminin dağılmasından sonra (1918-ci il, 26 may) erməni milli şurası Tiflisdə Ermənistan (Ararat) Respublikasının yaradıldığını elan etdi. 1918-ci il mayın 29-da Tiflisdə Azərbaycan Milli Şurasının iclası keçirildi. İclasın 3 nömrəli protokoluna görə, Fətəli xan Xoyski şura üzvlərinin Azərbaycan və erməni federasiyası ərazilərinin sərhədləri məsələsinə dair erməni milli şurası ilə apardıqları danışıqların nəticələri barədə məruzə etmişdir. Xoyski məruzəsini erməni federasiyasının yaradılması üçün onlara siyasi mərkəz lazım olduğunu, Aleksandropolun (Gümrü) Türkiyəyə keçməsindən sonra belə mərkəzin yalnız İrəvan ola biləcəyi haqqında məlumat verdikdən sonra İrəvanın ermənilərə güzəştə gedilməsinin zəruri olduğunu bildirmişdir. Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov bu məsələ üzrə çıxış edərək, İrəvanın ermənilərə güzəştini tarixi zərurət, labüd bədbəxtlik adlandırdılar. Bu məsələ üzrə səsvermə nəticəsində 28 şura üzvündən 16-sı İrəvanın güzəşt edilməsinin lehinə, 1 nəfər əleyhinə səs vermiş, 3 nəfər bitərəf qalmışdır (protokolda belə göstərilmişdir). Beləliklə, Azərbaycan Milli Şurası İrəvanın Ermənistana güzəştə gedilməsi haqqında qərar qəbul etmişdir. Azərbaycan Cümhuriyyəti Hökumətinin Baş naziri Fətəli xan Xoyski mayın 29-da xarici işlər naziri Məmməd Həsən Hacınskiyə yazırdı: " Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik". Milli Şuranın iyunun 1-də keçirilən iclasında həmin məsələyə yenidən baxılaraq, bu qərara protest elan edildi. Onu Şuranın İrəvandan olan 3 üzvü imzalamışdı. Milli Şura protesti müzakirə olunmadan iclas protokoluna əlavə etməyi qərara aldı. İrəvanın ermənilərə güzəşt olunması haqqında qərarın qəbul edilməsi, onun əsaslandırılması üçün gətirilən bütün dəlillərə baxmayaraq, siyasi cəhətdən tamamilə səhv addım idi. Erməni hökuməti Tiflisdən İrəvana köçdükdən sonra İrəvanda və Azərbaycanın digər tarixi torpaqlarında azərbaycanlılara qarşı soyqırımı törətdi. İrəvan azərbaycanlıları həm daşnak (1918-1920), həm də sovet (1920-1991) hökumətinin məqsədyönlü qırğın və deportasiya siyasətinə məruz qaldı, İrəvanda azərbaycanlılara məxsus maddi mədəniyyət abidələri dağıdıldı, onların erməniləşdirilməsi tədbirləri həyata keçirildi. 1980-ci illərin sonlarından başlayaraq azərbaycanlılar İrəvan şəhərindən tamamilə çıxarıldı.

*(Əvvəli ötən nömrələrimizdə)*

## VİCDANINIZIN SƏSİNİ EŞİDİN

**Nə vaxtsa yazmışdım ki, ən böyük qatil vicdanının səsini boğandır. Bu gün də - saçımın ağaran vaxtlarında da həmin fikirdəyəm.**

Vicdan ərəb mənşəli sözdür, "çatmaq" və "sevmək" mənalarını verir. "Vicdanı yoxdur!"-deyə ittiham etdiyimiz adamların hər biri əslində vicdan sahibidir. Başqa sözlə, vicdansız adam yoxdur. Çünki, vicdan insanla bir doğulur, onun içində yaşayır, dəyişmir, azalmır, korlanmır. Bu dunyada ən vicdansız iş görənlərin də vicdanı heç vaxt vücudlarını tərk eləmir. Həmin adamların vicdanının susduğunu düşünənlər də yanılırlar. Çünki vicdan heç vaxt susmur. Vicdan içimizdəki həyəcan siqnalıdır, zəngdir, olar-olmazı bildirən zəng. Səhər yerimizdən saatın zəngilə dururuq. Saatın işi bizi xəbərdar etməkdir və edir də. Yerimizdən qalxmırıqsa, bu, artıq bizim günahımızdır, qalxmağın vacibliyini bildirən zəngin yox!

Vicdanın səsinə qulaq asmaq, həmişə, hər işdə ədalətli mövqe tutmaq deməkdir. Bu, çox adama sərf eləmədiyi üçün vicdanının dediyini yox, bildiyini edir. Vicdanının səsini eşitməmək üçün özlərini karlığa qoyanlar, bu, alınmayanda isə vicdanının səsini içində boğmağa çalışanlar var. Vicdanının əleyhinə gedənlərin qazandıqları isə ən əvvəl nifrət olur.

Vicdanınızın səsini eşidin. O, heç vaxt aldatmır. Sizinlə hətta pıçıltı ilə danışsa belə, dediklərini dinləyin və əməl edin. Uduzmazsınız.

Vicdanınızla qoşa addımlayın, qoşa yaşayın. O, sizi pis şeylərə sürükləməz.

İngiltərə alimlərinin fikrincə, müasir insan genetik olaraq Allaha inamla doğulur. Yəni Allaha inam insanın canında anadangəlmə mövcuddur. Alimlər tədqiqat zamanı uşaqların təfəkküründə intuitiv formada fövqəltəbiliyə inam olduğunu üzə çıxarıblar.

Allaha inam olmasaydı, yəqin indiki cəmiyyət də mövcud olmazdı. Bəşəriyyətin ilk çağlarında Tanrının, ilahi ədalətin, dünya düzənində nizamın varlığına inam bəsləyən insan qrupları daha möhkəm sosial əlaqələr qura, bununla da həyatda qalma dərəcəsini yüksəldə biliblər. Məhz bu inam müasir cəmiyyətin əsasını qoymuş, inkişafını stimullaşdırmışdır. Allaha inamı, bu haqda anlayışı olmayan tayfalar və insan qrupları isə özlərindən sonra heç bir iz qoymadan parçalanaraq məhv olmuşlar.

Belə isə, Allaha inamı olanlar vicdanının da əleyhinə getməməlidirlər. Yoxsa yanılıram?

***Rasif TAHİROV***

## Ən təhlükəli sunamilər



**Son yarım əsrdə sunami ilə bağlı proqnoz verməkdə, onun tədqiqi və lentə alınmasında mühüm nəticələr əldə edilib. Eyni zamanda sunamilər daha dəhşətli olmağa başlayıb.**

Dünyada baş vermiş ən böyük sunamilərin siyahısında Papua-Yeni Qvineya da yer alıb. 1998-ci ildə burada 7 bal gücündə zəlzələ baş verib. Yerli sakinlərdən heç kim gözləmirdi ki, bu zəlzələ sunamiyə səbəb olacaq.

Zəlzələ nəticəsində nəhəng sualtı sürüşmə əmələ gəlib və sunaminin hündürlüyü 15 metrə çatıb. Sunami zamanı 2183 nəfər həyatını itirib və 500 nəfər itkin düşüb. 10 000 nəfərə yaxın sakin evsiz qalıb, bəzi kəndlər tamamilə dağılıb.

Bununla belə, alimlər həmin fəlakət sayəsində sualtı sürüşmələr zamanı gözlənilməz sunamilərin yarandığını müəyyən ediblər və bu, gələcəkdə minlərlə insanın həyatının xilasına kömək edib.

1976-cı ildə Mindanao adasındakı Moro körfəzində (Filippin) 7,9 bal gücündə zəlzələ baş verib. Zəlzələ nəticəsində sahildən 700 km məsafəni əhatə edən nəhəng sunami yaranıb. Sakinlər sunamidən xilas ola bilməyiblər.

Dünyada ən böyük sunami minlərlə insanın həyatına son qoyub. 5000 nəfər ölüb və 2200 nəfər itkin düşüb. Eyni zamanda 9500 nəfər yaralanıb və adanın 90 000 nəfər sakini evsiz qalıb. Sunaminin hündür-



lüyü 4,5 metrə çatıb. Bu ölkənin tarixində ən dağıdıcı sunami olub.

1960-cı ildə Valdiviyada (Çili) 9,5 bal gücündə zəlzələ baş vermişdi. Zəlzələ vulkan püskürməsinə və çox böyük sunamiyə səbəb olub. Sunaminin hündürlüyü 25 metrə çatıb. O, müxtəlif regionları əhatə edib. Sunami Valdiviyadan başqa, Havay adala-



rına və onun mərkəzi Hiloya da çatıb. Yeddi saatdan sonra sunami Yaponiyaya çataraq 142 nəfərin ölümunə səbəb olub. Bu sunami ümumilikdə 6000 nəfərin həyatına son qoyub.

Daha bir dəhşətli sunami Toxuku sunamisidir. Bu, 2011-ci ildə Yaponiyada baş verib və böyük fəlakətlər törədib. 9 ballıq zəlzələdən sonra əmələ gəlib. Sunaminin hündürlüyü bəzi yerlərdə 40 metrə çatıb. Sunami nəticəsində 125 minə yaxın bina dağılıb, 25 000 nəfər həyatını itirib və itkin düşüb. Bundan başqa, sunami Fukusima Atom Elektrik Stansiyasına ciddi ziyan vurub və beynəlxalq miqyaslı fəlakət yaradıb. Məlumata görə, radiasiya 320 kilometr məsafəyə yayılıb.

## 7 yaşlı "arxeoloq"

**Yeddi yaşlı avstraliyalı qız delfinlərin "ulu əcdad"ının qalıqlarını aşkarlayıb. Bu məxluq 100 milyon il əvvəl, dinozavrlar dövründə Avstraliyanın daxili dənizində yaşayırdı.**

Milli.az The Herald Sun-a istinadən bildirir ki, valideynləri ilə birlikdə Avstraliyanın Kuinslend ştatında istirahətdə olan yeddi yaşlı Uilson Ember talada oynayarkən sümük qalıqlarını aşkarlayıb. Həmin sümüklər uzunluğu 7 metrə çatan və dinozavrlar dövründə yaşamış ixtiozavrın qalıqları imiş. Olay Riçmond şəhərindəki Paleontologiya Muzeyinin yanında baş verib.

Emberin dediyinə görə, əvvəlcə beysbol topu boyda sümük tapıb. "Bu kürəni atama göstərdim. Atam və anam da mənə qoşuldular və qumu qazmağa başladıq. Az sonra dişləri 6 sm-ə çatan kəllə tapdıq. Kəllənin uzunlugu 1,5 metr idi", -Ember Uilson deyib.

Riçmond Paleontologiya Muzeyinin eksperti, doktor Timoti Holland heyrətini gizlədə bilmir: "Çox təəccüblənmişəm. Peşəkar paleontoloq bütün karyerası boyunca belə yaxşı vəziyyətdə olan qalıqları aşkarlaya bilmir. Ember isə cəmi 2 saata bu qalıqları üzə çıxarıb".

## Köpək balığının qarnında insan başı tapıblar

**Filippindən olan balıqçılar 600 kiloqramlıq köpək balığının mədəsində yarısı həzm olunmuş insan başı və ayağı tapıblar.**

30 il balıqçılıqla məşğul olan 48 yaşlı yerli sakin Bodoyya Horqodun sözlərinə görə, o, heç vaxt bu cür hadisə görməyib. Balıqçılar köpək balığının çənəsini və üzgəclərini xatirə kimi saxlayıblar. Mədəsində tapılmış insan qalıqlarını, həmçinin balığın qalan hissələrini qayığın bortundan kənara atıblar. Bu cür yük pis əlamət hesab edilir. Eyni zamanda, Horqodun sözlərinə görə, köpək balığının parçalanmış bədəni dəhşətli dərəcədə pis iy verib.

Jurnalistlər dəniz yırtıcısının qarnındakı insan qalıqlarının kimə məxsus olduğunu müəyyən etməyə çalışırlar. Çoxlarının fikrincə, bu, sentyabrın 13-də



Filippinin Kamiqin adası yaxınlığında qəzaya uğramış "Maharlika" bərəsindəki sərnişinin qalıqları ola bilər. O vaxt yüzə yaxın sərnişin xilas olsa da, iki nəfər indiyə kimi itkin hesab edilir. Balıqçılardan birinin arvadı bildirib ki, ərinin xatirə kimi saxladığı köpək balığının çənəsi və üzgəcini tez bir vaxtda atmaq lazımdır. O, qorxur ki, dəniz yırtıcısının diri-diri yediyi adamın ruhu ailə üzvlərinə ziyan vura bilər.

## Şəhərdə bir nəfər yaşayır

Dünyanın ən kiçik şəhərlərinin siyahısı açıqlanıb. Xarici KİV-lərin yaydığı məlumata görə, siyahıda birinci yeri ABŞ-ın Buford şəhərciyi tutub. Burada cəmi bir nəfər yaşayır. O, eyni vaxtda şəhərin meri vəzifəsini icra edir. Əhalisi 17 nəfərdən ibarət olan Xorvatiyanın Xum şəhəri ikinci yerdə, əhalisi 20 nəfər olan Çexiyanın Rabşteyn şəhəri üçüncü yerdədir. Dördüncü yerdə isə Bolqarıstanın Melnik şəhəri qərarlaşıb. Bu şəhərdə nisbətən çox adam - 390 nəfər yaşayır.

Beşinci yeri Rusiyanın Çekalin şəhəri tutur. Siyahıyaalmaya görə burada 992 nəfər yaşayır, halbuki 1956-cı ildə bu şəhərdə 2008 nəfər yaşayıb.



*İlham MƏMMƏDOV*

# Rusca-İngiliscə-Azərbaycanca dənizçilik terminlərinin izahlı lüğəti

*(Əvvəli ötən nömrələrimizdə)*

### Дедвейт — Dedveyt
### DEADWEIGHT

Общий вес груза, запасов топлива, воды, снабжения и экипажа, которые судно может принять при его погружении по допустимую грузовую марку. Дедвейт представляет собой разность между водоизмещением судна в полном грузу и порожнем.

Yolverilən yük markasına kimi suya oturmaqla gəminin qəbul edə biləcəyi yükün, yanacaq, su və təchizat ehtiyatının, həbelə heyət üzvlərinin ümumi çəkisi. Dedveyt gəminin tam yüklənmiş və boş halda subasımları arasındakı fərqi ifadə edir.

### Дейли рипорт — Deyli riport
### DAILY REPORT

Ежедневные сведения о выгрузке груза с судна, оформляемые стивидором и получаемые брокером. Пользуясь этими сведениями, брокер держит в курсе дела судовладельца о ходе работ на судне.

Yükün gəmidən boşaldılması haqda stividor tərəfindən tərtib edilən və broker tərəfindən alınan gündəlik məlumatlar. Broker bu məlumatlardan istifadə edərək, gəmi sahibini gəmidə aparılan işlərin gedişindən xəbərdar edir.

### Декларации морские — Dəniz bəyannamələri
### MARINE DEKLARATIONS

Документы, требуемые соответствующими властями при приходе судна в порт или отходе из порта. Кроме морской санитарной декларации, предназначенной для санитарных властей, судно должно представить общую декларацию, декларацию о грузе, декларацию о судовых запасах и декларацию о личных вещах экипажа судна.

Gəmi limana gələndə və ya limandan yola düşəndə müvafiq hakimiyyət orqanları tərəfindən tələb edilən sənədlər. Sanitar hakimiyyət orqanları üçün nəzərdə tutulmuş dəniz sanitar bəyannaməsindən başqa, gəmi ümumi bəyannaməni, yük haqqında, gəminin ehtiyat təchizatı haqqında və gəmi heyətinin şəxsi əşyaları haqqında bəyannaməni də təqdim etməlidir.

### Деливери дейте — Deliveri deyts
### DELIVERY DATES

Дата, на которую фирмой назначена поставка грузов. В случае, если груз не прибыл к этой дате, считается, что отправитель не выполнил своих обязательств согласно договору.

Yüklərin mənzilbaşına çatdırılması üçün firma tərəfindən təyin olunmuş tarix. Əgər yük bu tarixə gəlib çatmazsa, yükgöndərən müqaviləyə əsasən öhdəliklərini yerinə yetirməmiş sayılır.

### Деливери нот — Deliveri not
### DELIVERY NOTE

Накладная; документ, сопровождающий погруженный на судно к груз для вручения грузополучателю с описанием подробных данных о грузе. В деливери ноте указываются те же данные, что и в коносаменте и в дополнение указываются причал, номер таможенной декларации и артикул.

Qaimə, gəmiyə yüklənmiş yük haqqında ətraflı məlumatların qeyd edildiyi sənəd. Yükalana təqdim olunmaq üçün tərtib edilir. Deliveri notda konosamentdəki məlumatlar göstərilir və əlavə olaraq körpü, gömrük bəyannaməsinin nömrəsi və artikul qeyd edilir.

### Деливери ордер — Deliveri order
### DELIVERY ORDER

1) Документ, играющий роль долевого коносамента и содержащий распоряжение о передаче определенному лицу части груза, доставленного судном по коносаменту. Деливери ордер выдается обычно в тех случаях, когда груз, перевезенный по одному коносаменту в адрес одного получателя, подлежит выдаче различным получателям по частям. Поскольку деливери ордер не является товарораспорядительным документом, капитан судна либо его агент могут выдать деливери ордер либо акцептовать деливери ордер, выданный грузовладельцем, лишь в том случае, если им будет представлен подлинный коносамент с распиской получателя в принятии груза.

2) Документ, содержащий распоряжение владельца груза владельцу склада о выдаче определенному лицу части хранящего у него груза. Право на получение груза возникает у получателя лишь после того, как деливери ордер будет акцептован владельцем склада.

1) Pay konosamentinin rolunu oynayan və konosament üzrə gəminin çatdırdığı yükün bir hissəsinin müəyyən şəxsə verilməsi barədə sərəncamın qeyd olunduğu sənəd. Deliveri order adətən bir yükalanın ünvanına bir konosamentlə daşınan yükün müxtəlif yükalanlara hissələr üzrə paylanmalı olduğu hallarda verilir. Deliveri order mal üzərində sərəncamverici sənəd hesab edilmədiyindən, gəminin kapitanı və ya onun agenti yalnız yükalanın yükü qəbul etməsi barədə qeydi ilə əsl konosamentin onlara təqdim ediləcəyi təqdirdə deliveri order verə və ya yük sahibinin verdiyi deliveri orderi akseptləşdirə bilər.

2) Yük sahibinin anbar sahibinə onda qorunub saxlanan yükün bir hissəsinin müəyyən şəxsə verməsi barədə sərəncamının qeyd olunduğu sənəd. Yükalan yükü almaq hüququna yalnız anbar sahibinin deliveri orderi akseptləşdirməsindən sonra malik olur.

### Делимитация морских пространств — Dəniz məkanlarının müəyyənləşdirilməsi
### DELIMITATION SEA SPACE

Определение посредством соглашения между заинтересованными государствами линии разграничения морских пространств, находящихся под суверенитетом или юрисдикцией этих государств. Положение таких линий описывается в соглашении, и, как правило, они наносятся на прилагаемую карту. Делимитация территориальных вод двух государств, берега которых расположены один против другого или примыкают друг к другу, осуществляется по соглашению этих государств. Если нет соглашения, то ни одно из государств не имеет права распространять свои территориальные воды за линию, каждая точка которой равноудалена от ближайших точек на исходных линиях, принятых в каждом из государств для отсчета ширины территориальных вод. Это правило, однако, не применяется в тех случаях, когда в силу исторических правооснований или других особых обстоятельств территориальные моря разграничиваются иначе.

Maraqlı dövlətlər arasında saziş vasitəsi ilə bu dövlətlərin suverenliyi və ya yurisdiksiyası altında olan dəniz məkanlarının sərhəd çəkən xətlərlə müəyyənləşdirilməsi. Belə xətlərin yeri sazişdə təsvir edilir və bir qayda olaraq, sazişə əlavə edilən xəritədə həmin xətlər çəkilir. Sahilləri qarşı-qarşıya və ya bir-birinə yanaşı, bitişik olan iki dövlətin ərazi sularının müəyyənləşdirilməsi (delimitasiyası) həmin dövlətlərin sazişi üzrə həyata keçirilir. Əgər saziş yoxdursa, heç bir dövlət öz ərazi sularını dövlətlərin hər birində ərazi sularının eninin hesablanması üçün qəbul edilmiş çıxış xətlərinin ən yaxın nöqtələrindən bərabər uzaqlıqda olan nöqtələrdən ibarət xəttin xaricində genişləndirmək hüququna malik deyil. Lakin o hallarda ki, ərazi suları tarixi hüquqi əsaslar, yaxud digər xüsusi hallar üzündən başqa cür bölünür, bu qayda tətbiq edilmir.

### Демаркация морских границ — Dəniz sərhədlərinin demarkasiyası
### DEMARCATION OF SEA BORDERS

Точное определение и установление линии прохождения морской границы на местности на основании соответствующего соглашения о делимитации морских пространств и прилагаемых к нему материалов. Демаркация осуществляется совместными смешанными комиссиями из представителей государств-участников соглашения по делимитации или специальным международным органом, создаваемым на основе международного договора, в рамках которого осуществлена делимитация морских пространств. Работа по демаркации морских границ включает гидрографическую и топографическую съемку, аэрофотосъемку, установку буев, вех, и др. знаков. В итоге работы составляется протокол - описание прохождения морской границы с приложением карт с нанесенной на них морской границей и протоколы на каждый пограничный знак. Документы демаркации вступают в силу после их утверждения правительствами соответствующих сторон.

Dəniz məkanlarının müəyyənləşdirilməsi haqqında müvafiq saziş və ona əlavə edilən materiallar əsasında dəniz sərhədi xətlərinin keçdiyi yerin dəqiq müəyyənləşdirilməsi və təyin olunması. Demarkasiya (sərhədin çəkilməsi, sərhədin nişanlara ayrılması) sərhədin delimitasiyası üzrə sazişin iştirakçı dövlətlərinin nümayəndələrindən ibarət birgə qarışıq komissiyaları və ya dəniz məkanlarının müəyyənləşdirilməsinin həyata keçirildiyi beynəlxalq müqavilə əsasında yaradılan xüsusi beynəlxalq orqan tərəfindən həyata keçirilir. Dəniz sərhədlərinin demarkasiyası üzrə işə hidroqrafik və topoqrafik çəkiliş, aerofotosəkilçəkmə, buyların, nişan ağaclarının və digər nişanların qoyulması daxildir. İşin sonunda dəniz sərhədinin çəkildiyi xəritələr əlavə olunmaqla, dəniz sərhədinin keçməsini təsvir edən və hər bir sərhəd nişanı üçün protokol tərtib edilir. Demarkasiya sənədləri müvafiq tərəflərin hökumətləri tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

### Демередж — Demerec
### DEMURRAGE

Денежное возмещение, уплачиваемое судовладельцу фрахтователем или грузоотправителем либо грузополучателем за простой судна под грузовыми операциями сверх сталийного времени, предусмотренного в договоре морской перевозки. Ставка демереджа предусматривается в виде определенной суммы, подлежащей уплате за каждый день простоя судна либо 1 рег. тонн вместимости судна в день. Время демереджа по истечении сталийного времени считывается за все дни независимо от наличия непогожих, воскресных и праздничных и дней.

Dənizlə yük daşınma müqaviləsində yük əməliyyatları üçün nəzərdə tutulmuş staliya vaxtından artıq müddətə gəminin boşdayanmasına görə fraxtedənin və ya yükgöndərənin, yaxud yükalanın gəmi sahibinə ödədiyi məbləğ. Demerec miqdarı gəminin boş dayandığı hər günə və ya gəminin gündə 1 registr ton tutumuna görə ödənilməli olan müəyyən məbləğ şəklində nəzərdə tutulur. Demerec vaxtı staliya vaxtı başa çatan kimi, qeyri-əlverişli hava şəraitinin, istirahət və bayram günlərinin olmasından asılı olmayaraq, bütün günlər üçün hesablanır.

### Денедж — Danec
### DUNNAGE

Различные материалы, используемые для отделения грузов от пайолов судна, его бортов, переборок и т.п. с целью предохранения их от порчи из-за отпотевания, трения и смещения грузовых мест. В качестве денежда используются доски, маты, циновки, мешковина, полиэтиленовая пленка и другие подобные материалы. Обычно в чартерах оговаривается за чей счет относить стоимость денежда.

Müxtəlif materiallar, onlardan yükləri tərləmə, sürtünmə və yerdəyişmə nəticəsində xarabolmadan qorumaq məqsədi ilə yükləri gəminin anbarlarının döşəməsindən, gəmi bortlarından, arakəsmələrindən və sairədən aralı saxlamaq üçün istifadə edirlər. Danec kimi taxtalardan, fərşlərdən (payəndazlardan), həsirlərdən, gişlərdən (kisəlik parçalardan), polietilen örtüklərdən və digər bu kimi materiallardan istifadə olunur. Adətən, çarterlərdə danecin dəyərini kimin hesabına aid etmək qabaqcadan şərtləşdirilir.

*(Davamı var)*

---

## Ada böyüyür

**Tokiodan cənubda 900 km məsafədə yerləşən Nisinosima vulkanik adası sualtı vulkanın püskürməsindən sonra bir il ərzində 8,6 dəfə böyüyüb.**

Hazırda bu adanın qərbdən şərqə uzunluğu 1,55 min metr, cənubdan şimala isə 1,7 min metrdir. Vulkanik kütlənin həcmi 50 milyon kubmetr təşkil edir. Adanın ən hündür yeri dəniz səviyyəsindən 100 metr yüksəkdir.

Bir il əvvəl-noyabrın 20-də Yaponiyanın Oqasavara arxipelaqından sualtı vulkan püskürməyə başlayıb və nəticədə yeni vulkanik ada yaranıb. Ada tezliklə nazik bərzəx vasitəsilə yaxınlıqda yerləşən Nisinosima adası ilə birləşib, sonra isə onunla birlikdə vahid quru sahəsi təşkil edib.

Meteroloqlar bildirirlər ki, hazırda vulkanın püskürməsi davam edir və demək, ada da hələ çox böyüyəcək.

## HƏRBİ GƏMİYƏ HÜCUM EDİBLƏR

**Aralıq dənizində silahlıların Misirin Hərbi-Dəniz Qüvvələrinə məxsus gəmisinə hücumu nəticəsində hərbçilərdən yaralanan və itkin düşənlər var.**

"Gazeta.ru"nun məlumatına görə, silahlıların 4 qayığı məhv edilib, 30 nəfər həbs olunub. "Əməliyyat-axtarış tədbirləri nəticəsində 5 hərbi qulluqçu xəstəxanaya göndərilib, 8 nəfər itkin düşüb. Onların axtarışı davam etdirilir",-deyə Misirin Müdafiə Nazirliyindən bildirilib. Misir hökuməti insidenti terror aktı kimi qiymətləndirib. İlkin ehtimallara görə, hücumun arxasında "Ənsər Beyt əl-Məkdis" qruplaşması durur.



## YARIZARAFAT, YARIGERÇƏK

- Heç olmasa profilaktika üçün ayda-ildə bir dəfə həqiqəti demək olmaz?
- Deyirəm nə yaxşı olar, oğrunun əli gətirəndə, doğrunun da bəxti gətirə.
- Niyə bəziləri yalnız cibini doldurmağa çalışır, başını yox.
- Yeddi qıza dəyən bir oğuldansa, yeddi qız yaxşıdır.
- Görəsən, başımı götürüb hara getsəm, başım ağrımaz?
- Hansı cinsdən olan it sonda yiyəsini tanımır?
- Çətin işin öhdəsindən gəlməyin sevinci də böyük olur.
- Bütün pis şeylər işsizlikdən başlayır. İşsiz bəzən başını qatmaq istəyəndə belə işdən-iş çıxarır.
- Günahlarımız üst-üstə çox yığılanda yumaq çətin olur.
- Pullu adamlar özlərini elə, vəzifəlilər belə, pulu çox olan vəzifəlilər isə həm elə aparırlar, həm belə.
- Mübariz olmağa nə var? Hünərin çatırsa, Mübariz İbrahimov ol!
- Əməyin təhlükəsizliyi xidmətinin işçiləri hara baxırlar? Ona-buna quyu qazılanda ən azı təhlükəsizlik texnikası qaydalarına əməl edilmir.
- Cibimiz nə boydadır ki, hamı girmək istəyir?
- İgid də yoxdur ki, soruşam igidliyin neçə nişanı var.
- Nə qədər ki, yaxşılar yaxşıları müdafiə etmir, pislərin günü pis keçməyəcək.
- Hamı özünü təmizə çıxarmaq istəyir. Sonra deyirlər ki, bulaşmamışıq.
- Məni gərək bağışlayasınız. Mən sizə ancaq sözlə nə isə verə və uzağı nəyəsə söz verə bilərəm.
- Üzü soyuğa gedir. Şaxtalı günlərdə heç olmasa imanınızı yandırmayın.
- Niyə yuxarı başa başı olandan çox cibi olanı keçirirlər?
- Əvvəllər elə bilirdim ki, suyumuz pis gəldiyi üçün bəziləri günahlarını yuya bilmir.
- Belə məlum olur ki, çox şey naməlum qalmalıdır.
- Yaltağın pisi-yaxşısı yox, cavanı-qocası olur.
- Bir vaxtlar düşünürdüm ki, yalnız tikə-tikə, qura-qura ucalmaq olar. İndi görürəm ki, yıxa-yıxa “ucalanlar” daha çoxdur.
- Deyəsən dilimiz son vaxtlar çox inkişaf edib axı, bir düz sözə görə yüz yalan deyirlər.
- Niyə bəzi adamlara elə gəlir ki, ağıl başda yox, pulda olur.
- Ucuz ətin bəzən heç torbası da olmur.
- Bəzən mənə elə gəlir ki, çox adamın adamlıqdan uzaqlaşmasının ən böyük səbəbi burnundan uzağı görməməyidir. Burundan uzağı görməyənin uzağa baxmağından nə fayda?
- Bu günə kimi rastlaşdığım və özlərini ağıl dəryası sayanların mində biri ağıl dəryası olsaydı, mənim kimi üzə bilməyənlər yəqin çoxdan boğulmuşdular.
- Kişi də ara vurar? Həm də kişilərin arasını.
- Mən heç kəsə pislik etmirəm o demək deyil ki, mənə edilmiş pislikləri çox rahat qəbul edirəm və mənə kim nə qədər istəyir, pislik edə bilər.
- Kişilər arasında söz gəzdirənə nə deyirlər?

*Rasif TAHİROV*




“AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ” QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI**

*aşağıda göstərilən kafedralar üzrə vakant vəzifələrin tutulması üçün müsabiqə*

**ELAN EDİR:**

**“Riyaziyyat” kafedrası:** 0,5 ştat, professor - 1yer; dosent - 1 yer.
**“Humanitar fənlər” kafedrası:** 0,5 ştat, dosent - 1 yer; assistent - 1yer.
**“Su nəqliyyatında daşımalar” kafedrası:** 0,5 ştat, professor - 1yer; assistent - **1yer.**
**“Gəmiqayırma və gəmi təmiri” kafedrası:** baş müəllim-1 yer.
**“Naviqasiya” kafedrası:** baş müəllim - 1 yer; 0,5 ştat, baş müəllim -1 yer; assistent - 1 yer.
**“Gəmi energetik qurğuları” kafedrası:** 0,5 ştat, dosent - 1 yer; baş müəllim - 2 yer.
**“Gəmi avtomatikası” kafedrası:** assistent - 1 yer.
**“Dillər” kafedrası:** 0,5 ştat, dosent - 1 yer; dosent - 1 yer; baş müəllim - 1 yer; assistent - 2 yer.

**Sənədlər təlimata uyğun olaraq rektorun adına yazılmış ərizə ilə birlikdə bu ünvana təqdim edilməlidir: Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 18**

**Sənədlərin təqdim olunması elan dərc edildiyi tarixdən 1 ay müddətindədir.**

*Əlaqə telefonu: 493-75-21; 493-36-44, daxili 229*


## "DƏNİZ"İN GÜLÜŞ PAYI

- Ogul, sən çox bahalı siqaretlər çəkirsən.
- Ata, nə etməli, əgər mənə belələri xoş gəlirsə?
- Mənə də beləələri xoş gəlir, amma qənaət edirəm…
- Ata, axı sənin böyük ailən var, mən isə hələ təktənhayam.

***

- Utanmırsan, sən hələ balacasan, amma yalan danışırsan.
- Məgər yalnız böyüklər yalan danışa bilər?

***

Səhnədə komediya göstərilirdi. Əsnəməkdən hamının çənəsi yorulmuşdu. Ancaq bir nəfər gülürdü. Yanında oturan adam ondan soruşdu:

- Niyə gülürsən? Pyesdə gülməli bir şey yoxdur, axı.
- Niyə də gülməyim?! Axı pul vermişəm, nə üçün hədər getsin.

***

Şeirləri də hekayələri qədər zəif olan bir həvəskar yazıçı yoldaşlarının birindən soruşur:

- Dostum, necə məsləhət bilirsən, hekayə yazsam yaxşıdır, yoxsa şeir?

Yoldaşı cavab verir:

- Hekayə.
- Eləmi? Demək hekayələrimi oxumusan?
- Xeyr, şeirlərini oxumuşam.

***

- İnsan həyatı teleqrama oxşayır.
- Niyə?
- Onun kimi qısa və səhvlərlə doludur.

***

- Nikah bəzi qurbanlar tələb edir, mənim əzizim. Misal üçün, biz evlənəndən sonra sən hər gün xörək bişirməlisən.
- Əlbəttə, əzizim, sən də hər gün onu yeməlisən.

***

Bir kişi dostu dəlləyə borc pul verəndə dəllək öz təşəkkürünü belə bildirir:

- Çox sağ ol, işin bərkə düşsə, gələrsən yanıma, üzünü müftə qırxaram…

***

Həkim xəstənin ona verdiyi pulun az olduğunu görüb kinayə ilə soruşur:

- Bu pulu mənə verirsən, ya xidmətçiyə?
- İkinizə də, -deyə xəstə cavab verir.



## Xərçəngin bəzi növlərinin yaranma səbəblərini öyrəniblər

**Amerikalı alimlər yeddi mindən artıq xərçəng xəstəsinin genomlarını öyrəniblər ki, bu da onlara şişlərin daha çox yayılmış otuz növünün meydana çıxması səbəblərini və mexanizmlərini müəyyənləşdirməyə imkan verib.**

“Nature” jurnalı yazır ki, bu, gələcəkdə şiş növləri arasında ümumi cəhətləri tapmağa kömək edəcək və xərçəngin müalicəsinin universal metodları üzərində işləmək imkanı yaradacaq. Tədqiqatlar alimlərə iyirmidən artıq ən ümumi və geniş yayılmış mutasiya mexanizmlərini aydınlaşdırmağa imkan verib.

Alimlərin fikrincə, xərçəngin ən çox yayılmış otuz növünün inkişaf səbəbi mutasiya prosesləridir. Həkimlər qeyd edirlər ki, şişin hər bir növünün inkişafına təsir göstərən proseslərin sayı əhəmiyyətli dərəcədə fərqlənir. Məsələn, qaraciyər xərçənginin inkişafı üçün altı bu cür prosesin eyni zamanda “qoşulması” tələb olunur. Yumurtalıqların xərçəngi üçün isə cəmi iki proses kifayət edir. Alimlərin kəşf etdikləri mexanizmlərin gələcəkdə öyrənilməsi xərçəngin yaranma səbəbini daha yaxşı başa düşməyə və bu xəstəliyin bir neçə növünü eyni zamanda məhv etməyə qadir dərmanların hazırlanmasına başlamağa imkan verəcək.


*BAŞ REDAKTOR*
Rasif İman oğlu
TAHİROV

ÜNVANIMIZ:
Bakı şəhəri,
B. Ağayev küçəsi, 117
TELEFONLARIMIZ
Baş redaktor
(050) 670-33-76,
redaktor müavini
(050) 341-26-40

*Qəzetin təsisçisi*
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətidir

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “OL” MMC-də çap olunmuşdur

Şəhadətnamə 271
Sayı 2000
Sifariş 192